# Zəngilan qayıdış zənginin çalınacağı günün astanasındadır

***Azərbaycan Silahlı Qüvvələri ötən il sentyabrın 27-dən genişmiqyaslı əks-hücuma keçərək Ermənistanın işğal altında saxladığı bir çox yaşayış məntəqələrimizi, strateji yüksəklikləri, o cümlədən, Murovdağ zirvəsini azad etdi. Böyük zəfərlərə imza atan hərbçilərimiz tərəfindən Cəbrayıl, Füzuli rayonlarında üçrəngli Azərbaycan bayrağı ucaldıldı. Daha sonra Ermənistan silahlı birləşmələrinin 1993-cü ildə işğal etdiyi Cəbrayıl rayonunda yerləşən Xudafərin körpüsü düşməndən təmizləndi.***



Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin keçən il oktyabr ayının 20-də Zəngilan şəhərinin və rayonunun bir neçə kəndinin azad olunduğunu elan etməsi xəbərini də hər bir azərbaycanlı sevinclə qarşıladı.

Prezident İlham Əliyev həmin gün xalqa müraciətində dedi: “Xalq tərəfindən mənə göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək. Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik”.

Bəli, 44 günlük Vətən müharibəsində müzəffər Azərbaycan Ordusu hərb meydanında möhtəşəm qələbələr qazandı. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüşlərdə Silahlı Qüvvələrimizin güc-qüdrətini, peşəkarlığını, cəsarət və rəşadətini gördü.

Həmin günlərdə mənfur düşmən Tərtər, Ağdam, Goranboy, Ağcabədi, Bərdə, digər şəhər və rayonlarımızı atəşə tutaraq, bizi dayandırmaq, bizə zərbə vurmaq üçün bütün dünyanın gözü önündə mülki əhaliyə qarşı cinayət törətdi. Bu vəhşilik isə xalqımızı qələbə əzmindən döndərə, hərbçilərimizin döyüş ruhunu sarsıda bilmədi. Əksinə, Azərbaycanın hər bir sakini Prezidentimizin, ordumuzun haqq işini dəstəklədi. Düşmən isə bu qətiyyətin, mübarizliyin qarşısında aciz duruma düşərək, döyüş meydanında acı məğlubiyyətə uğradı, fərarilik etdi.

Prezident İlham Əliyev həmin müraciətində dedi: “Bütün dünya görür ki, Azərbaycan hansı mənfur, vəhşi düşməndən öz doğma torpaqlarını azad edir. Otuz il ərzində bizim torpaqlarımızda oturub bizə meydan oxumağa çalışırdı. Otuz il ərzində bizim torpaqlarımızı istismar edirdi, bizim təbii resurslarımızı istismar edirdi, oğurluq, talançılıq onların xislətidir. Dağıdılmış kəndlərin, şəhərlərin vəziyyətinə baxmaq kifayətdir, hər kəs görsün ki, bizim qarşımızda hansı vəhşilər dayanıb. İşğal olunmuş və artıq azad edilmiş torpaqlarda bir dənə də salamat bina qalmayıb. Bütün binalar sökülüb, talan edilib, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz dağıdılıb, talan edilib, təhqir edilib. Onlar hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Onlar hesab edirdilər ki, bu torpaqları əbədi işğal altında saxlayacaqlar. Onlar bizim şəhərlərimizin adlarını dəyişdiriblər, rayonlarımızın sərhədlərini dəyişdiriblər, kəndlərimizin adlarını dəyişdiriblər, bizim torpaqlarımızı erməniləşdirmək istəyiblər, amma buna nail ola bilmədilər, Azərbaycan xalqının iradəsini qıra bilmədilər”.

Zəngin təbiəti ilə diqqətçəkən Zəngilan da digər rayonlarımız kimi, işğal dövründə tamamilə yerlə yeksan edilib, rayonun qəsəbə və kəndləri dağıdılıb, bir salamat bina belə saxlanılmayıb. Rayonda 107 hektar sahəsi olan Bəsitçay Dövlət Təbiət Qoruğu, 2,2 min hektar sahəsi olan Araz boyu yasaqlıq, 4 təbiət abidəsi, 10 min hektar xüsusi mühafizə olunan Araz palıdı meşəsi və 12 min 864 hektar dövlət meşə fondundan indi demək olar ki, əsər-əlamət qalmayıb. Rayonda sənaye əhəmiyyətli ehtiyatları 6,5 ton qızıl və 3 min ton mis təşkil edən Vejnəli qızıl yatağı talan edilib.

İşğal nəticəsində təxmini hesablamalara görə, rayona 3,4 milyard ABŞ dolları ziyan dəyib. Yardımçı təsərrüfat sahələri nəzərə alınmadan, əhaliyə məxsus 11 min yaşayış evi, 150 şəxsi maşın və minik avtomobilləri, 43 min qaramal, 92 min qoyun-keçi, 265 min ev quşları, 1600 arı ailəsi düşmənin əlinə keçib.

Uzun illər davam edən işğal zamanı Ermənistanın təcavüzkar siyasəti nəticəsində Zəngilanın tarix və mədəniyyət abidələri dağıdılıb, mənimsənilib, təyinatına uyğun gəlməyən şəkildə istifadə olunaraq vandalizmə məruz qalıb. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan mədəni irs nümunələri İslam dini abidələri – məscidlər, türbələr və digər inanc yerləri olub. Ermənilər məscidlərin içərisində ev heyvanları saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini ifadə ediblər. İşğal olunan ərazilərdə yerləşən mədəni irsə, o cümlədən xüsusi əhəmiyyətə malik unikal abidələrə bu cür barbarcasına münasibət, əslində, dünya irsinə qarşı yönələn təhdiddir.

Xalqımız, eləcə də zəngilanlılar belə faşist əməlləri, barbarlığı heç zaman unutmayacaq, eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevi, qəhrəman ordumuzu daim xilaskar kimi qəlblərində yaşadacaqlar. Havalı kənd sakini Nazim Dünyamalıyev deyir:

–Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin keçən il Zəngilanın işğaldan azad olunması ilə bağlı xəbəri xalqımıza çatdırdığı anları sözlə ifadə etməkdə çətinlik çəkirəm. Bəlkə də o vaxtadək özümü elə bəxtəvər hiss etməmişdim. Düzdür, ötən il 44 gün ərzində qəsbkarların tapdağı altında olan torpağımızın hər qarışı azad ediləndə böyük fərəh hissi keçirirdim. Lakin Zəngilanda doğulduğum, burada gəncliyimi, qayğısız illərimi yaşadığım üçün bu sevinc mənə daha doğma idi. Ordumuzun düşmənə qarşı əks-həmlə əməliyyatı başlayandan, Zəngilanın yağıdan azad olunacağı xəbərini necə intizarla gözlədiyimi, gecə-gündüz qulaqlarımın səsdə olduğunu yaxınlarım, dostlarım yaxşı bilirdilər. Çox şükür, illərlə ürəyimdə daşıdığım arzuma axır ki, qovuşmuşam. İndi möhtərəm Prezidentimizin rəhbərliyi ilə Zəngilanda genişmiqyaslı bərpa-quruculuq işləri görülür. Bu, doğma yurd-yuvamıza qayıdacağımız günün tezliklə gələcəyindən xəbər verir.

***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 20 oktyabr.- S.6.